# ŞƏKİ: YAŞI 3000 İLİ KEÇƏN CAVAN BİR ŞƏHƏR

**(əvvəli ötən sayımızda)**

**Nazirlər Kabinetinin 2019-cu ilin I rübünün yekunlarına və qarşıda duran məsələlərə həsr olunan yığıncağında çıxış edən cənab Prezidentimiz qeyd etmişdir ki, fındıqçılıq bizim üçün ənənəvi sahədir və pomidor ixracından sonra kənd təsərrüfatında ikinci valyuta gətirən sektordur .Ölkə başçısının fındıq bağlarının genişləndirilməsi məqsədilə qarşıya qoyduğu vəzifələrin icrası olaraq 2019-cu ilin yaz mövsümündə Şəkidə 388 hektar sahədə yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur.**

2019-cu ilin I rübündə Şəkidə yenidənqurma , tikinti - quraşdırma işləri davam etdirilmiş ,ilin əvvəlində şəhərimizdə aparılacaq abadlıq , quruculuq işlərinin planı təsdiqlənmişdir. Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2019-cu il tarixli, 890 nömrəli Sərəncamına əsasən ayrılmış vəsait hesabına Şəki Şəhər İcra Hakimiyyətinin yeni inzibati binasının tikintisi davam etdirilir.

Şəki şəhərində 28 ədəd çoxmənzilli ictimai yaşayış binalarının dam örtüklərinin təmiri işləri başlanmış, 48 mənzilli yaşayış binasının tikinti altına torpaq sahəsi ayrılmış, layihə smeta sənədləri tərtib olunmuş, 11 nömrəli orta məktəb üçün müasir tipli yeni 960 şagird yerlik tam orta məktəbin tikintisi işləri sürətlə aparılır.

Şəki şəhərində əhalinin içməli su təmin etmək üçün layihənin yeni mərhələsi başlanmışdır. 2019-cu ilin I rübündə kommunal xidmət sahələrinin fəaliyyətinin günün tələbləri səviyyəsinə çatdırılması üçün müəyyən işlər görülmüş, əhalinin fasiləsiz elektrik enerjisi və təbii qazla təchizatı səviyyəsinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanmışdır. Nazirlər Kabinetinin 2019-cu ilin I rübünün yekunlarına və qarşıda duran məsələlərə həsr olunan yığıncağında çıxış edən Cənab Prezidentimiz qeyd etmişdir ki, qazlaşdırma Azərbaycanda ən yüksək səviyyədədir və bu il də qazlaşdırma ilə bağlı işlər aparılır. Lakin bəzi yerlərdə əhaliyə verilən qazın təzyiqi və keyfiyyətli aşağıdır. Cənab Prezident "Azəriqaz" tərəfindən bəzi hallarda əsası olmayan işlərə son qoyulmasını, burada maksimum şəffaflıq, ədalətin təmin edilməsinin vacibliyini vurğulamışdır.



Şəki Şəhər İcra Hakimiyyətinə müraciət edən vətəndaşlar da həm sayğaclar, həm də qazın keyfiyyəti ilə bağlı problemlərdən şikayətlənir. Hesab edirəm ki, bu sahədə mövcud olan problemlər tamamilə aradan qaldırılmalı, cənab Prezidentimizin qeyd etdiyi kimi bütün sahələrdə - elektrik enerjisi, içməli su, təbii qazın verilməsi ilə bağlı maksimum şəffaflıq və ədalət təmin edilməlidir.

### Təhsil

Hesabat dövründə təhsil sisteminin tədrisi, təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkili daim diqqət mərkəzində saxlanmışdır. Hazirda rayonda 96 ümumtəhsil məktəbi fəaliyyət göstərir. 2018-2019-cu tədris ilinin I yarımilinin yekunlarına görə ümumtəhsil məktəblərinin böyük əksəriyyətində keyfiyyət göstəriciləri yüksək olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən bu il 15- 18 və 23-26 mart tarixində respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə tur -aksiya keçirilmişdir .

Tur aksiya zamanı Şəkiyə 18 şəhər və rayondan 765 nəfərə yaxın iştirakçı gəlmişdir. Tur-aksiya çərçivəsində məktəblilər şəhərimizin tarixini dərindən öyrənmiş, son illər Şəkidə görülən işlərlə yaxından tanış olmuşdur.

### Səhiyyə

Cənab Prezidentimizin tapşırıq və tövsiyəsinə uyğun olaraq fevralın 11-dən başlayan və mayın 12-dək davam edən əhalinin dispanzerizasiyası respublikamızın bütün şəhər və rayonlarında olduğu kimi, Şəkidə də uğurla aparılmışdır. Müddət ərzində müayinədən keçən 96537 nəfər sakinin 5176 nəfər ambulator , 192 nəfər stasionar müalicəyə cəlb edilmiş, 72 nəfər Bakı şəhərinə müalicəyə göndərilmişdir. Mən bütün şəkililər adından bu böyük sosial layihəyə görə cənab Prezidentimizə bir daha təşəkkürümü bildirirəm. Şəkinin 33 şəhər, kənd və qəsəbə icra nümayəndəliyində Şəki şəhər İcra Hakimiyyəti başçısı tərəfindən təsdiq edilmiş qrafikə uyğun olaraq 2018-ci ilin yekunlarına dair hesabat yığıncaqları keçirilmişdir. Yığıncaqlarda görülən işlər və mövcud problemlər müzakirə edilmişdir.

Yığıncaqlarda irəli sürülən təkliflər Şəki şəhər İcra Hakimiyyətinin tədbirlər planına daxil edilmiş, məsul şəxslər müəyyənləşdirilərək icrası nəzarətə götürülmüşdür. 2019-cu ilin I rübündə Şəki Şəhər İcra Hakimiyyəti başçısının şəhərin məhəllə və kəndlərində keçirdiyi səyyar qəbullarda qaldırılan məsələlərin bəzisi "Azərbaycan Respubliksı Regionlarının 2019 -2023-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na daxil edilmiş, digər təkliflərin həlli üçün isə aidiyyatı nazirliklər, idarə və təşkilatlar qarşısında məsələ qaldırılmışdır.






### Hüquq

2019-cu ilin I rübündə Şəkidə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi sahəsində bir çox işlər görülmüşdür. Müddət ərzində 38 cinayət hadisəsi qeydə alınmış, cinayətlərin açılma faizi 93, 8 faiz olmuşdur. Qeyd etmək istəyirəm ki, bu rəqəm keçən ilin müvafiq dövründən 2 dəfə azdır. Yəni, 2018-ci ilin birinci rübündə 68 cinayət hadisəsi qeydə alındığı halda, bu ilin birinci rübündə cəmi 38 cinayət hadisəsi qeydə alınmışdır. Müddət ərzində Şəki Şəhər Rayon Polis Şöbəsi tərəfindən keçirilən əməliyyat axtarış tədbirləri nəticəsində narkomaniya ilə bağlı 13 fakt aşkar edilmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına uyğun olaraq 2019-cu ilin I rübündə 227 nəfər həqiqi hərbi xidmətə göndərilmişdir.

### Vətəndaşların qəbulu

2019-cu ilin I rübündə 144 nəfər vətəndaş Şəki Şəhər İcra Hakimiyyəti başçısı tərəfindən qəbul edilmişdir. Müddət ərzində şəhər İcra Hakimiyyəti başçısı tərəfindən 10 səyyar qəbul keçirilmiş, 84 nəfər vətəndaş dinlənilmiş ,113 müraciət səsləndirilmişdir. Müddət ərzində Şəki Şəhər İcra Hakimiyyətinə 733 müraciət daxil olmuşdur ki, onlardan da 307-si respublikanın yuxarı orqanlarından, 426 ədədi isə birbaşa vətəndaşlar tərəfindən daxil olan müraciətlərdir. Daxil olan müraciətlərin 51 ədədi müsbət , 7 ədədi qismən həll olunmuş, 565 ədədi ilə bağlı müvafiq izahat verimiş, 70 ədədi baxılmaq üçün aidiyyatı orqanlara göndərilmiş, qalanları isə icradadır.

İclasda yekun olaraq qeyd edilmişdir ki, Nazirlər Kabinetinin 2019-ci ilin I rübünün yekunlarına həsr olunan geniş yığıncağında hörmətli Prezidentin söylədiyi kimi: "Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, daim irəliyə baxmalıyıq. Əminəm ki, biz bu ili də uğurla başa vuracağıq, 2019-cu il də ölkəmiz üçün, xalqımız üçün uğurlu olacaq".

**Məzahir ƏHMƏDZADƏ**